# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş “Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 301 (Cild I); 2024, № 6 (II kitab), maddə 741) ilə təsdiq edilmiş “Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci hissə üzrə:

1.1. birinci abzasdan ikinci və üçüncü cümlələr çıxarılsın;

1.2. ikinci abzas həmin hissənin birinci abzasının ikinci cümləsi hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

“Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi, habelə dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş dövlət torpaq sahələrinin illik icarə haqqı məbləği torpağın bazar dəyərinin Bakı şəhəri üzrə 3 faizinə, ölkənin digər şəhər və rayonları üzrə 2 faizinə bu Əsasnamənin 8 nömrəli əlavəsində göstərilən əmsallar vurulmaqla müəyyən edilir.”;

1.3. üçüncü abzas ləğv edilsin.

2. Əsasnaməyə aşağıdakı məzmunda 8 nömrəli əlavə - Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi, habelə dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş dövlət torpaq sahələrinin illik icarə haqqı məbləğinin müəyyən edilməsində tətbiq edilən əmsallar əlavə edilsin:

**8 nömrəli əlavə**

**Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi, habelə dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş dövlət torpaq sahələrinin illik icarə haqqı məbləğinin müəyyən edilməsində tətbiq edilən əmsallar**

| Torpaq sahəsinin ölçüsü | Əmsal |
|---|---|
| 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) | 1,0 |
| 5001–10000 kvadratmetr | 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) - 1,0<br>5001 kvadratmetrdən yuxarı hissə (5001 kvadratmetr daxil olmaqla) - 0,8 |
| 10001–50000 kvadratmetr | 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) - 1,0<br>5001–10000 kvadratmetr - 0,8<br>10001 kvadratmetrdən yuxarı hissə (10001 kvadratmetr daxil olmaqla) - 0,7 |
| 50001 kvadratmetrdən yuxarı (50001 kvadratmetr daxil olmaqla) | 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) - 1,0<br>5001–10000 kvadratmetr - 0,8<br>10001–50000 kvadratmetr - 0,7<br>50001 kvadratmetrdən yuxarı hissə (50001 kvadratmetr daxil olmaqla) - 0,5 |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 8 ” “ may ” 2026-cı il

№ 138